# İlk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında ifa üzrə respublika müsabiqəsinin keçirilməsi haqqında Azərbaycan Respublikası təhsil nazirinin əmri

İlk peşə-ixtisas təhsili müəssisələri şagirdlərinin ifa mədəniyyətlərini yüksəltmək, musiqi alətlərində Azərbaycan bəstəkarlarının əsərlərinin, xalq mahnılarının səsləndirilməsi istiqamətində aparılan işləri daha da yaxşılaşdırmaq, xüsusi istedada malik gəncləri üzə çıxarmaq məqsədilə

**ƏMR EDİRƏM:**

1. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında ifa üzrə respublika müsabiqəsi keçirilsin.
2. Müsabiqənin əsasnaməsi və təşkilat komitəsinin tərkibi təsdiq olunsun (əlavə olunur).
3. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsi (A.İbrahimov) və Texniki peşə təhsili şöbəsi (N.Məmmədov) müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsini təmin etsinlər.
4. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) müsabiqənin respublika mərhələsinin qaliblərinin mükafatlandırılması, diplom və dəvətnamələrin hazırlanması məqsədilə təsdiq olunmuş xərclər smetasına əsasən 420 (dörd yüz iyirmi) manat məbləğində vəsaitin ayrılmasını təmin etsin.
5. Ümumi şöbə (H.Məmmədova) əmr və əlavələrin çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.
6. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.
7. Əmrin icrasına nəzarət nazir müavini E.Qasımova həvalə olunsun.

Əsas: Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsinin iş planı.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***22 fevral 2011-ci il***
***№293***

---